# Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması QAYDASI

Azərbaycan Respublikası Prezidentinin

2017-ci il 20 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir

1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 165.4-cü maddəsinə uyğun olaraq, ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin (bundan sonra – ƏDV) geri qaytarılması qaydasını tənzimləyir.

1.2. Bu Qaydanın tələbləri, bu Qaydanın 1.3-cü bəndində göstərilən mallar istisna olmaqla, yalnız istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan və ticarət festivalları dövründə alınmış istehlak mallarına şamil edilir.

1.3. Bu Qayda aşağıdakı mallara şamil edilmir:

1.3.1. aksizli mallar;

1.3.2. ərzaq malları;

1.3.3. dərman preparatları və tibbi ləvazimatlar;

1.3.4. ölkə daxilində satışı ƏDV-dən azad edilən mallar;

1.3.5. çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlar;

1.3.6. külçə şəklində qiymətli metallar;

1.3.7. nəqliyyat vasitələri və onların ehtiyat hissələri.

1.4. Bu Qayda bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri (ƏDV ilə birlikdə) 100 manatdan çox olduğu hallarda tətbiq edilir.

1.5. ƏDV-nin alıcıya qaytarılması nağd ödəniş və ya bank kartına (və ya hesabına) köçürmə yolu ilə həyata keçirilir.

1.6. Operatorun göstərdiyi xidmətlərə görə alıcıya ödəniləcək ƏDV məbləğindən 20 faiz həcmində xidmət haqqı tutulur. Xidmət haqqı vergi orqanlarının büdcədənkənar gəlirlərinə aid edilməklə, bu Qaydanın 4.2-ci bəndində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi üçün istifadə edilir.

1.7. Ticarət festivalı dövründə alınmış mallara görə ödənilmiş ƏDV həmin malların alındığı gün ərzində müvəkkil bank tərəfindən qaytarılır. Alınmış mallara görə ödənilmiş ƏDV-nin malların alındığı gündən sonrakı günlərdə qaytarılmasına yol verilmir.

1.8. Azərbaycan Respublikasında ticarət festivalları Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin müəyyən etdiyi qaydada təşkil olunur.

2. Əsas anlayışlar

2.0. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.0.1. fiziki şəxs - Azərbaycan Respublikasının vətəndaşı, habelə əcnəbi və vətəndaşlığı olmayan şəxs;

2.0.2. alıcı – istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malları Azərbaycan Respublikasının ərazisində alan, bu Qaydanın 2.0.1-ci bəndində nəzərdə tutulan şəxs;

2.0.3. satıcı – ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərtilə satış həyata keçirmək üçün qeydiyyata alınan ƏDV ödəyicisi;

2.0.4. operator – ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərtilə alıcılara təqdim edilən elektron vergi hesab-fakturalarının (bundan sonra – e-VHF) tərtib edilməsinə, həmin e-VHF-lər barədə məlumatların aidiyyəti üzrə ötürülməsinə imkan verən proqram təminatının və vahid məlumat bazasının fəaliyyətini təşkil və idarə edən dövlət orqanı;

2.0.5. stiker – xüsusi hazırlanmış yapışqanlı kağız etiket;

2.0.6. risk – vergi qanunvericiliyinin tələblərinin yerinə yetirilməməsi ehtimalı;

2.0.7. risk qiymətləndirmə sistemi – məlumatların toplanması, məlumat bazasının yenilənməsi, risklərin təhlili, müvafiq proseslər və onların nəticələrinin mütəmadi monitorinqi yolu ilə risklərin müəyyən edilməsi, onların təhlükəlilik ehtimalının və dövlətin iqtisadi, sosial və digər maraqlarına dəyəcək ziyanın dərəcəsinin qiymətləndirilməsi;

2.0.8. vahid məlumat bazası – operator tərəfindən idarə olunan, bu Qaydada nəzərdə tutulmuş hallarda alıcılara ticarət festivalları dövründə alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılması üçün zəruri məlumatların inteqrasiya olunduğu vahid sistem;

2.0.9. ƏDV köşkü – ticarət festivalı dövründə alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılmasının rəsmiləşdirilməsi məqsədilə operator tərəfindən xüsusi yaradılmış köşk;

2.0.10. müvəkkil bank – Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin rəyi nəzərə alınmaqla və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası ilə razılaşdırılmaqla operator tərəfindən müəyyən edilən müvəkkil bank və ya banklar.

3. Satıcının qeydiyyatı

Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərtilə satış həyata keçirmək üçün vergi ödəyicilərinin qeydiyyatının aparılması Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə müəyyən edilmiş qaydada həyata keçirilir.

4. Operator

4.1. Operatorun səlahiyyətlərini Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir.

4.2. Operator:

4.2.1. bu Qayda ilə müəyyən edilmiş hallarda malların satışının rəsmiləşdirilməsi və əlavə dəyər vergisinin qaytarılması işlərini təşkil edir;

4.2.2. aşağıdakı tələblərə cavab verən proqram təminatının və vahid məlumat bazasının yaradılmasını və idarə edilməsini təmin edir:

1. ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərtilə alıcılara təqdim edilmiş mallar üzrə e-VHF-nin tərtib edilməsi, ştrix-kodla birlikdə çap edilməsi və həmin e-VHF-lər barədə məlumatların aidiyyəti üzrə ötürülməsi;

2. alıcı tərəfindən ƏDV köşkündə təqdim edilən e-VHF-nin ştrix-kodu əsasında e-VHF-nin məlumatlarının eyniləşdirilməsi;

4.2.3. proqram təminatının daim işlək vəziyyətdə saxlanılmasını və fasiləsiz fəaliyyətini təmin edir;

4.2.4. alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılmasının rəsmiləşdirilməsi məqsədilə ƏDV köşklərinin fəaliyyətini təşkil edir və onların sayı, ünvanı və iş qrafikini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırmaqla, ƏDV-nin bu Qaydanın 1.7-ci bəndində müəyyən edilmiş müddətdə qaytarılması imkanını təmin edir;

4.2.5. ƏDV köşkündə risk qiymətləndirilməsinin nəticəsindən asılı olaraq mallara baxış keçirir;

4.2.6. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə stikerin formasını və tətbiqi qaydasını müəyyən edir.

5. Malların satışının rəsmiləşdirilməsi

5.1. Ticarət festivalı dövründə alıcı aldığı malların dəyərini ödəmək məqsədilə ödəniş nöqtəsinə yaxınlaşdıqda satıcı ondan ƏDV-nin qaytarılması hüququndan istifadə etmək barədə istəyinin olub-olmadığını dəqiqləşdirir. Alıcı ƏDV-nin qaytarılması hüququndan istifadə etmək istədikdə, satıcı ona bu Qaydanın tələbləri barədə ümumi məlumat verir.

5.2. Alıcı əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda satıcı ona bu Qaydanın tələbləri ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın tələbləri barədə ümumi məlumat verir. Alıcı qismində iştirak edən əcnəbi və ya vətəndaşlığı olmayan şəxs seçiminə uyğun olaraq, aldığı mallara görə ödənilmiş ƏDV-nin bu Qaydanın tələbləri və ya "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın tələbləri çərçivəsində qaytarılmasını tələb edə bilər.

5.3. Alıcı tərəfindən ƏDV-nin qaytarılması hüququndan istifadə etmək istəyi bildirildikdən sonra satıcı aşağıdakı məlumatları özündə əks etdirən e-VHF-ni Azərbaycan Respublikası Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında elektron vergi hesab-faktura sistemi vasitəsilə tərtib edir və həmin məlumatları real vaxt rejimində vahid məlumat bazasına ötürür:

5.3.1. e-VHF-nin seriyası, nömrəsi və tarixi;

5.3.2. satıcının adı, soyadı, təsərrüfat subyektinin ünvanı və VÖEN-i;

5.3.3. alıcının adı və soyadı;

5.3.4. alıcının şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi;

5.3.5. alıcının vətəndaşı olduğu ölkənin adı (vətəndaşlığı olmayan şəxsin gəldiyi ölkənin adı);

5.3.6. satılmış malın adı, miqdarı, vahidinin qiyməti və həmin qiymətin tərkibindəki ödənilmiş ƏDV-nin məbləği;

5.3.7. həmin e-VHF üzrə alınmış mala görə ödənilmiş ƏDV-nin qaytarılacağı son tarix;

5.3.8. alıcının bank kartının (və ya hesabının) rekvizitləri – alıcının istəyi əsasında;

5.3.9. operatorun və müvəkkil bankın əlaqə məlumatları və rekvizitləri;

5.3.10. satıcının təsərrüfat subyektinə ən yaxın ƏDV köşkünün ünvanı.

5.4. E-VHF ştrix-kod əks olunmaqla iki nüsxədə çap edilir və hər iki nüsxə alıcıya təqdim olunur. E-VHF satıcının imzası və mərkəzində bu əməliyyatların ƏDV-nin qaytarılması şərtilə həyata keçirildiyinə dair təsdiqedici qeyd olan möhürlə təsdiqlənməklə təqdim edilir. E-VHF-nin formasını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.5. Satış nöqtəsində texniki nasazlıq yaranması səbəbindən e-VHF-nin tərtibi və çapı mümkün olmadıqda, satıcı tərəfindən mətbəədə çap edilmiş ciddi hesabat blankı olan vergi hesab-fakturası 3 nüsxədə tərtib edilir və bu Qaydanın 5.4-cü bəndinə uyğun olaraq təsdiqlənir. Onun bir nüsxəsi satıcıda qalır, digər iki nüsxəsi isə alıcıya verilir.

5.6. Satıcı tərəfindən texniki nasazlıq bərpa olunduqdan dərhal sonra aparılmış əməliyyatlar üzrə, bu Qaydanın 5.3-cü bəndinə uyğun olaraq, e-VHF tərtib edilir və həmin məlumatlar real vaxt rejimində vahid məlumat bazasına ötürülür.

6. ƏDV-nin qaytarılması

6.1. Alıcı tərəfindən ticarət festivalı dövründə alınmış mallar üzrə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə ƏDV köşkündə aşağıdakı ardıcıllıqla tədbirlər həyata keçirilir:

6.1.1. alıcı mallara dair e-VHF-ni ƏDV köşkündə vergi orqanının əməkdaşına təqdim edir;

6.1.2. e-VHF-nin məlumatları vergi orqanı tərəfindən vahid məlumat bazasında eyniləşdirildikdən sonra avtomatik risk qiymətləndirməsi aparılır;

6.1.3. risk qiymətləndirməsinin nəticələri əsasında mallara vergi orqanının əməkdaşı tərəfindən baxılmalı olub-olmadığı proqram təminatı vasitəsilə açıqlanır. Mallara baxışın keçirilməsi tələb edildiyi halda alıcı həmin malları baxışın keçirilməsi məqsədilə vergi orqanının əməkdaşına təqdim edir. Vergi orqanının əməkdaşı təqdim edilmiş mallarla vahid məlumat bazasına daxil edilmiş məlumatların uyğunluğunu yoxlayır, yoxlamanın nəticələrinə uyğun olaraq, alıcıya qaytarılacaq ƏDV məbləği barədə alıcının təqdim etdiyi e-VHF-də təsdiq qeydi aparır, onu möhürlə təsdiq etməklə alıcıya təqdim edir və vahid məlumat bazasında e-VHF-ni təsdiq etməklə bu barədə məlumatı real vaxt rejimində müvəkkil banka ötürür;

6.1.4. risk qiymətləndirməsinin nəticələri əsasında alıcıdan malları baxış üçün təqdim etmək tələb olunmadıqda, qaytarılacaq ƏDV-nin yekun məbləğini əks etdirən e-VHF vergi orqanının əməkdaşı tərəfindən möhürlə təsdiq olunur və bu barədə məlumatlar real vaxt rejimində müvəkkil banka ötürülür.

6.2. Bu Qaydanın 5.4-cü bəndində nəzərdə tutulan halda vergi orqanının əməkdaşı e-VHF-nin satıcı tərəfindən sistemə daxil edilib-edilmədiyini yoxlayır. Məlumatlar sistemə daxil edildiyi halda bu Qaydanın 6.1.2–6.1.4-cü yarımbəndlərində göstərilən tədbirlər həyata keçirilir. Məlumatlar sistemə daxil edilmədiyi halda vergi orqanının əməkdaşı həmin e-VHF-nin seriya və nömrəsi əsasında bu Qaydanın 5.6-cı bəndində göstərilən tədbirləri həyata

keçirir. Bu zaman vergi orqanının əməkdaşı tərəfindən e-VHF-də göstərilən malların faktiki mövcudluğu yoxlanılır, ona uyğun olaraq e-VHF hər iki nüsxədə ƏDV-nin yekun məbləği əks etdirilməklə təsdiq olunur və bu barədə məlumat real vaxt rejimində müvəkkil banka ötürülür.

6.3. E-VHF-nin bir nüsxəsi vergi orqanında saxlanılır, digər nüsxəsi isə alıcıya qaytarılır.

6.4. Alıcı ƏDV köşkündə yoxlamadan keçdikdən sonra müvəkkil bank vergi orqanı tərəfindən möhürlə təsdiq olunmuş e-VHF-yə əsasən qaytarılmalı olan ƏDV məbləğini alıcının istəyinə uyğun olaraq bu Qaydanın 1.7-ci bəndində müəyyən edilmiş müddətdə milli valyutada nağd ödəniş və ya 10 iş günündən gec olmayaraq milli valyutada (əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə isə milli və ya xarici valyutada) bank kartına (və ya hesabına) köçürmə qaydasında qaytarır.

6.5. Alıcının istəyinə uyğun olaraq ƏDV-nin qaytarılması bank kartına (və ya hesabına) köçürmə qaydasında həyata keçirildiyi təqdirdə, alıcı vergi orqanı tərəfindən təsdiqlənmiş, bu Qaydanın 5.3.8-ci yarımbəndində nəzərdə tutulan məlumatları əks etdirən e-VHF-nin bir nüsxəsini ƏDV köşkündə bu məqsəd üçün yaradılmış xüsusi qutuya atır.

6.6. Bu Qaydanın 6.5-ci bəndində nəzərdə tutulan e-VHF-lər müvəkkil bank tərəfindən vahid məlumat bazasında təsdiq edilir və qaytarılmalı vəsait alıcının göstərdiyi bank kartına (və ya hesabına) köçürülür.

6.7. ƏDV məbləği alıcının bank kartına (və ya hesabına) köçürülən zaman xarici valyuta ekvivalenti müəyyən edilərkən, müvəkkil bankın ƏDV-nin qaytarıldığı tarixə müəyyən etdiyi məzənnə əsas götürülür.

6.8. Qaytarılacaq ƏDV məbləği müvəkkil bank tərəfindən bu Qaydanın 1.6-cı bəndində göstərilən və bank əməliyyatlarının aparılmasına görə xidmət haqları çıxılmaqla alıcıya ödənilir.

6.9. Müvəkkil bank ticarət festivalı dövründə bu Qaydaya əsasən qaytarılmış ƏDV məbləği barədə məlumatı bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra 5 iş günü müddətində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə təqdim edir.

6.10. Azərbaycan Respublikasının Vergilər Nazirliyi bu Qaydanın 6.9-cu bəndində nəzərdə tutulan məbləğə dair rəyini həmin bənddə nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra 5 iş günü müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

6.11. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qaydanın 6.10-cu bəndində nəzərdə tutulmuş rəy daxil olduqdan sonra 3 iş günü müddətində həmin məbləğin müvəkkil banka köçürülməsini Azərbaycan Respublikası Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə daxil olan ƏDV üzrə faktiki mədaxilin həmin məbləğ həddində azaldılması hesabına təmin edir.

6.12. Alıcı aldığı malı geri qaytardıqda, satıcı alıcıya təqdim etdiyi e-VHF-nin kağız daşıyıcıda olan nüsxələrini geri alır və elektron məlumat bazasında həmin e-VHF-ni ləğv etməklə müvafiq qeydlər aparır. Alıcı ƏDV-ni geri aldıqdan sonra malı qaytararsa, satıcı malın ƏDV-siz dəyərini alıcıya qaytarır.